*MƏQALƏ*

**Lamiyə Nəsirova**
Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin kiçik elmi işçisi
*nasirovs.19@inbox.ru*





# Monqol eposu «Canqar» və Kalmık xalqının tarixi mübarizəsi

Altay folklorunda ən mühüm və geniş yayılmış janr qəhrəmanlıq dastanlarıdır. Dastan nağıl, bahadırlıq nağılları, qəhrəmanlıq nağılları, qəhrəmanlıq poemaları kimi də adlandırılır[140]. Qərbi monqolların, daha dəqiq desək, kalmık xalqının qəhrəmanlıq və mübarizələrlə dolu tarixi keçmişini özündə əks etdirən "Canqar" dastanı həm də xalqın adət və ənənələrinin, dünyagörüşünün, milli-mənəvi dəyərlərinin təzahürüdür. "Canqar" dastanı Babək Qurbanov tərəfindən dilimizə tərcümə olunmuş və 2017-ci ildə nəşr edilmişdir. Sözügedən tərcümə işi Azərbaycan və monqol dastan yaradıcılığının müqayisəli şəkildə öyrənilməsi üçün əvəzolunmaz mənbədir.

Dastanın meydana gəlməsi XIII və ya XVI əsrlərə aid edilir. Eposun ilk elmi araşdırılması XIX əsrin əvvəllərindən başlanmış və B.Berqman tərəfindən nəşr edilmişdir.[141] Eposda İslamiyyətdən əvvəlki dövrlərə xas olan mifoloji qəhrəmanların mövcudluğu, həmçinin şamanizm və buddizm ünsürləri, arxaik dövrə aid izlər onun qədim tarixə malik olduğunu təsdiqləyən amillərdir. Dastanın günümüzə qədər gəlib çatması və qorunub saxlanmasında dastan ifaçılarının - canqarçıların rolu böyükdür. Eposun rapsodiyalarını ifa edən və mükəmməl yaddaşa malik canqarçılar kalmık xalqına məxsus adət və ənənələrə uyğun olaraq öz sənətlərini nəsildən-nəsilə ötürmüşdür.

Dünya xalqlarının dastan yaradıcılığında "Koroğlu", "Manas", "Kitabi-Dədə

---

**140 Altay dastanları və əfsanələri (2016). Tərcümə edəni: Qaybalıyeva Səkinə. Bakı, Elm və Təhsil, s. 5.**

**141 Bergmann B. (1804). Nomadischeunter den Kalmüken, Bd. II, Riga, c. 205-211.**

Qorqud", "Canqar" kimi qiymətli ədəbi abidələr xalqların ortaq dəyərlərinin müqayisəli şəkildə araşdırılmasına imkan yaradır. Dastanlar xalqın adət və ənənələrini, vətənpərvərliyini, azad və firavan yaşamaq uğrunda apardığı mübarizənin bədii ifadəsini özündə əks etdirir. Doğma diyarın yadellilərdən qorunması, azadlıq uğrunda aparılan mübarizələr hər zaman qəhrəmanlıq dastanlarının əsas qayəsini təşkil etmişdir. Təsadüfi deyildir ki, keçdiyi tarixi inkişaf yolunda kalmık xalqı üçün məmləkətin müdafiəsi həyat idealına çevrilmişdir. Kalmık xalqı öz mədəni inkişafında bir çox xalqlardan bəhrələnmişdir. "Zəngin folklor yaradıcılığına xas maddi və mənəvi sərvətlərə sahib olan kalmıklar, tədqiqatçıların da göstərdiyi kimi, monqol, Tibet və hind mədəniyyətlərinin təsirindən də faydalanmışlar"[142]. "Canqar" dastanında sosial və mədəni-məişət həyatına dair çoxsaylı türk sözlərinin istifadə olunması kalmık xalqına türkdilli millətlərin təsiri kimi dəyərləndirilir.



**Dastanın mövzusu və məzmunu**

Qəhrəmanlıq səhnələri ilə zəngin olan "Canqar" dastanı giriş və mahnı adlandırılan on iki boydan ibarətdir. Dastanlara xas olan nəzm və nəsrin bir-birini izləməsi eposda özünü göstərməkdədir. Dastanın əsas mövzusunu bahadırların Bumba ölkəsində doğma yurdlarını düşmən hücumlarından qorumaq uğrunda apardıqları mübarizələr təşkil edir. Pəhləvanların azad yaşamaq uğrunda verdikləri qəhrəmanlıq mücadiləsi dastanın bütün boylarını birləşdirən əsas motivdir. Eposun giriş hissəsində təsviri verilən, ədalət və hikmətlə idarə olunan ideal cəmiyyətdə Bumba xalqı ayrı seçkilikdən və ədalətsizlikdən uzaq daima şən, qayğısız, varlı və həmişə gənc ömür sürür. İnsanlar hər zaman cavan, optimist, nikbin ruhlu və həyata qarşı ümidlidirlər. Utopik bir dövlət quruluşunun təsvir olunduğu dastanda qüdrətli, bahadır xalq barış, sülh və əmin-amanlıq içində yaşayır. Bumba ölkəsi ədalətli hökmdar, insanların himayəçisi Canqar tərəfindən idarə olunur. Xalq qəhrəmanı Canqar öz məmləkətini ədalətli bölgü və mənəvi saflıqla idarə edir. O, altı min on iki bahadırla birlikdə doğma məmləkətini düşmən hücumlarından qorumağa və qarşıya çıxan bütün çətinlikləri dəf etməyə qadirdir.

Eposda ideal cəmiyyətin tərənnümü və ədalətli hökmdar mövzusu Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi poeziyasının ən əzəmətli əsərindən biri "İskəndərnamə"də xoşbəxtlər ölkəsinin təsviri və ümumbəşəri xoşbəxtlik arzularının ifadəsi kontekstində üst-üstə düşən məqamlardandır. Sözügedən poemanın "İqbalnamə" hissəsinin "İskəndərin Şimala çatması və Yəcuc səddini bağlaması" bölümündə ideal cəmiyyətin təsviri və ədalət yurdunun ağsaqqallarının fikirləri müqayisə baxımından diqqətəlayiqdir. Fitnədən, pislikdən, haramdan uzaq olan bu məmləkətdə insanlar öz idealları və arzuları ilə bərabərhüquqlu cəmiyyətdə yaşayırlar:

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana heç kimsə gülməz".[143]



142 Qurbanov Babək (2017). Kalmık xalqının qəhrəmanlıq dastanı "Canqar"da türk mənşəli ünsürlər (Ön söz). Canqar, Bakı, "Şur", 2017, s. 6.
143 İskəndərnamə (2004). Bakı, Lider nəşriyyatı, s. 180

### Dastanda bahadırların xarici düşmənlərə qarşı mübarizəsi

Eposun əsas qəhrəmanı, Bumba ölkəsinin ədalətli hökmdarı Canqarın və altı min on iki bahadırın mübarizəsi həm şulmuslarla[144], həm də yeraltında olan sehrli qüvvələrə malik manqaslarladır. Bu düşmənlər dastanda bəzən ümumi adla qara qüvvələr, nəhəng cüssəli div, manqas kimi adlandırılır. "Manqas adamları yeyən antropormof (məxluq) buddizmdən öncə şamanizm panteonuna aiddir. "Canqaryada"nın bəzi, çox qədim vaxtlarda meydana gəlmiş boylarında (mahnılarında) qəhrəmanlar manqaslarla vuruşurdu, fəqət sonralar "Canqaryada" vahid bir epopeya (dastan) kimi düzəldikdə (XV əsrin ortaları) kalmıkların saysız-hesabsız düşmənlərini (xoyrotları) da manqas deyə adlandırmağa başladılar".[145]



Dastanın müxtəlif boylarında bahadırlar Menqen Şikşirqi, Zarin Zan Tayşa, Şara Qyurqun, Alya Monhlya, Doqşon Manqna xan kimi manqas-düşmənlərlə mübarizə aparırlar. Dastanda qəhrəmanların gücü Maha-Qala kimi qorxunc Tanrıların gücünə bərabər tutulur. Monqol bahadırlıq nağıllarında qəhrəmanlar öz məğlubedilməzliyi ilə ad qazanmışdır. Bu, dastanda Al Honqor, Sovar, Minqyan kimi qəhrəmanların timsalında öz əksini tapır. Canqarın altı min on iki bahadırının sol tərəfinə Al Honqor, sağ tərəfinə isə kahin Altan Tsedji rəhbərlik edirdi. Qəhrəmanlar mübarizədən, vuruşmaqdan, şöhrət qazanmaqdan, döyüşlərdən zəfərlə çıxmaqdan usanmırlar. Bu çarpışmaların səbəbləri düşmənlərin qəhrəmanı əsir alması və ya öldürmək istəməsi, bahadırların atlarının qaçırılması, qəhrəman üçün dəyərli olan varlıqların – onun atının, arvadının, ən igid bahadırlarının düşmən tərəfindən istənilməsi və digər məsələlərdir.

Məlum olduğu kimi, bir sıra dastanlarda qəhrəmanlar kiçik yaşlarından igidlik göstərməyə başlayırlar. "Canqar" dastanı da bu baxımdan uyğun cəhətlərə malikdir. "Monqol eposunda ilk bahadırlıq səfərinə çıxan gənc qəhrəmanların yaşı da nağıl xarakteri daşıyır. Canqar ayrıca dastan həsr olunmuş ilk şücaətini - Altan-Secinin ilxısının oğurlanmasını altı yaşında göstərir; bu işdə ona dostu, Canqarın gələcək baş bahadırı beş yaşlı Xonqor kömək edir".[146] Eposda bahadırların mübarizəsi çox erkən yaşlardan başlayır. Artıq uşaqlıq çağlarından başlayaraq igidlik göstərmək, qalalar almaq, zadəgan və xanlarla mübarizəyə qalxmaq onlar üçün adi hala çevrilir. Dastanla eyni adı daşıyan Canqar Boqdo artıq yeddi yaşına çatana qədər çox qəhrəmanlıqlar göstərmişdir. Üç yaşlı yetim uşaq düşmənlərlə mübarizəyə qalxmış, üç düşmən qalasını dağıtmış, ömrünün beşinci yayında artıq beş hökmdarı əsir ala bilmişdir. Yeddi yaşına gəldiyi zaman isə o artıq yeddi ölkənin xanı idi, "böyük və şanlı Canqar" deyə çağırılırdı. Eposun digər bir bahadırı Honqor da uşaqlıqdan şücaətlər göstərir, beş yaşındaykən Canqarla birgə kahin Altan Tsedjinin ilxısını qaçırır.

Bahadırların qəhrəmanlıqlarının nəsildən-nəsilə ötürülməsi, ad qazanmaq üçün igidlik göstərməsi, haqqını alması "Kitabi-Dədə Qorqud" eposunda və monqol dastanlarında görülən ortaq cəhətlərdəndir. Monqol eposunda Canqar öz oğlu Şovşura məsləhətində deyir: "Oğul atadan gəlir ki, vətənə güvənli, dayaq ola bilsin. Oğlum, bil

---

144 Buyar Cəlal (2016). "Geçmişten günümüze Cangar destanı". Qeydlər. Milli folklor, yıl 28, sayı 109, s. 126

145 Qurbanov Babək (2017). Qeydlər. Canqar. Bakı,"Şur", s. 99

146 Jirmunski V. (2017). Xalq qəhrəmanlıq eposu. Azərbaycan Tərcümə Mərkəzi.Bakı, s. 21

ki, Bumbanın sənə ehtiyacı var".[147] Şovşur artıq üç yaşında düşmən qoşununa hücum edir, zadəganlarla döyüşür. "Kitabi-Dədə Qorqud"un "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da Uruz atasına gileylənir:

"A bəy ata!
Dəvəcə böyümüşsən, köşəkcə ağlın yox!
Təpəcə böyümüşsən, darıca beynin yox!
Hünəri oğul atadanmı görər, öyrənər,
Yoxsa atalar oğuldanmı öyrənər?"[148]



Eposun yeddinci boyunda Xoşun Ulan, Xara Cılqan, Alya Şonhor adlı üç uşağın timsalında kalmık xalqının mübarizliyinə xas olan bu cəhət yenidən öz əksini tapır. Bumbada öyüd və nəsihətlərlə, igidlik ruhu ilə böyüyən uşaqlar üçün əsas amal, şübhəsiz, vətənpərvərlik hislərinin qorunub saxlanmasıdır. Onlar öz istəkləri ilə Badmin Ulan kimi bir yenilməz pəhləvanla döyüşə girmək üçün səfərə çıxır. Üç cəsarətli uşaq ağsaqqal, böyük döyüşçü kahin Altan Tsedjinin nəsihətlərini yerinə yetirərək hər cür maneələrdən keçir və Canqarın düşməni Badmin Ulanla döyüşdən zəfərlə qayıdır.

Kalmık xalqının əsrlərlə verdiyi tarixi mübarizədə at hər zaman bahadırın ən yaxın və əvəzolunmaz döyüş yoldaşı olmuşdur. At qəhrəman üçün nəinki döyüş yoldaşı, həm də ona çətin vəziyyətlərdə yol göstərən sadiq tərəfdaşdır. Viktor Jirmunski monqol eposunda at obrazını təhlil edərkən yazmışdır: "Türk və monqol xalqlarının bahadırlıq nağıllarında, köçəri həyat şəraitində sehrli köməkçi kimi ata xüsusi yer ayrılır. At öz cildini dəyişərək ulduza, quşa və ya milçəyə çevrilə bilir; xalq nağıllarının estetik qaydalarına uyğun olaraq, silkələnib balaca ayğıra, "cılız, qozbel dayçaya" dönür. O, ölmüş qəhrəmanı dirilik suyu ilə dirildir və ya quyruğunun bir tükünü yetmiş sajen dərinlikdə quyuya sallayaraq onu yeraltı qaranlıqdan dartıb çıxarır"[149]. "Canqar" eposunda hər bir canlının müqəddəs olduğu Bumba ölkəsində at həm də xüsusi məna daşıyan varlıqdır. Bu dastanda bədii təsvirlə özünün ən aydın əksini tapır. Canqarın Aranzalı, Al Aslan Honqorun Otsola Keke, Altan Tsedjinin Kula və başqa bahadırların atının timsalında bu varlıq dostluq, vəfa rəmzidir. Koroğlunun Qıratı kimi Canqarla birlikdə çarpışmalarda iştirak edən Aranzal onu dəfələrlə döyüş meydanından yaralı vəziyyətdə xilas etmişdir. Qəhrəmanın atı insan kimi danışa bilir, sahibinə məsləhətlər verir, onlara çətin vəziyyətlərdə yol göstərir. Atın cildini dəyişərək müxtəlif varlıqlara çevrilməsi dastanda obrazın ikiləşməsi kimi özünü göstərir. "Canqar" eposunda bahadırın atının qaçırılması düşmənlə döyüşə girmək üçün yetərli səbəbdir. Dastanın "Duktahulun nəvəsi, Duuçinin oğlu Alya Monhlya böyük Noyon Canqarın on səkkiz min al sarışın rəngli iqdişini (cins atlarını) qaçırması" boyunda Canqar cins atlarının qaçırılmasını özünə təhqir bilir və bu səbəbdən dastanda qara qüvvələr kimi adı keçən düşmənlərlə döyüşə girməməyi qorxaqlıq sayır. Atının şulmuslar tərəfindən qaçırılması bahadır üçün üzqaralığı, şərəfinə və şanına xələldir. Qəhrəman düşmənlə

147 Canqar (2017). Bakı,"Şur", s. 296
148 Kitabi-Dədə Qorqud (1988). Bakı, Yazıçı, s. 167
149 Jirmunski V. (2017). Xalq qəhrəmanlıq eposu. Azərbaycan Tərcümə Mərkəzi.Bakı, s. 27

mübarizəyə bəzən təkbətək, lazım olduqda bahadırlarla birgə qalxır. Dastanın sözügedən boyunda Canqar qaçırılan atlarını geri qaytarmaq üçün öz igid Honqoru və döyüşçüləri ilə birgə yola çıxır. Qırx və doqquz günlük mübarizədən sonra on səkkiz min atını geri qaytarır.

**Bahadırların yeraltı dünyanın manqasları ilə mübarizəsi**

Dastan qəhrəmanlarının çarpışdığı düşmənlərlə yanaşı, yeraltı dünyada yaşayan manqaslarla mübarizəsi eposun on birinci boyunda öz əksini tapır. Manqaslar monqol mifologiyasında təkcə yer üzündə deyil, həm də yeraltı dünyada yaşayan, şeytani xüsusiyyətlərə malik varlıqlardır. Dastanın sözügedən boyunda bahadırların mifik, o biri dünyanın şər qüvvələri ilə mübarizəsi onu eposun digər boylarından fərqləndirən əsas cəhətdir. Monqol mifologiyasına aid olan yeraltı dünyanın təsviri və mistik qüvvələrin varlığı dastanın bu boyunda bahadırların mübarizəsində öz əksini tapır. Öz əsasını mistik qaynaqlardan götürən eposun mifologiya ilə sıx bağlılığı dastanın sözügedən boyunda özünü obrazlar sistemində, qəhrəmanların mübarizə apardığı düşmənlərin timsalında və cərəyan edən hadisələrdə göstərməkdədir. Folklor janrları arasında dastanlar mifoloji yönü ilə diqqəti daha çox cəlb edir və bu baxımdan mifoloji elementlərin qəhrəmanlıq dastanlarında da öz əksini tapması tez-tez görülən cəhətlərdəndir. C.Bəydilinin qeyd etdiyi kimi, "mədəni qəhrəmanlardan bəhs edən miflər sonralar sehirli və qeyri-adi nəsnələr ardınca o biri dünyaya yollanan qəhrəmanların başına gələnləri anladan sehirli nağılların təşəkkülündə əhəmiyyətli olmuşdur".[150] Qəhrəmanların mübarizəsi mifik təsəvvürlərdən meydana gələn düşmənlərlədir. Bahadırların yeraltında, cəhənnəmin yeddinci qatında qarşılaşdıqları, sehrli və fövqəl gücə malik manqaslar küpəgirən ifritə qarı, üç aylıq körpə, şulma (cadugər), tilsimli şeytanlardır. Dastanın "Şulmusların qəddar xanı Şara Qyurqunun (gürgünün) məğlub edilməsi" boyunda yeraltı dünyanın hökmdarı tərəfindən əsir alınan Honqor quru istiliyin hökm sürdüyü cəhənnəmdə şulmuslar tərəfindən dözülməz əzablara məruz qalır. Hər gün qızmar dəri qamçı ilə on bir min dəfə şallaqlanır. Bu cəhənnəm əzablarına dözən Honqor öz noyonu - xaqanı Canqar tərəfindən xilas olunur. Öz igid bahadırı Honqoru cəhənnəmin yeddinci qatından xilas etməyə gedən Canqar cadugərlə rastlaşır. Bir neçə dəfə cadugərin hiylələrinə düşən bahadır qılıncıyla tilsimli küpəgirən qarını məhv edir: "Boqdo o məqamda qılıncı ilə küpəgirən ifritə qarını iki çapdı. Onun yuxarı parçası ox kimi göyə, alt parçası isə torpağın dərin qatına girdi".[151] Yerin dərin qatlarında Canqarın şulmuslarla mübarizəsi davam edir. Cəhənnəmin qaranlıq qatlarında yaşayan beşikdəki üç aylıq körpə Canqara gözlənilmədən hücum çəkir. Körpə bahadırdan intiqam almaq üçün onunla çarpışır. Canqar bu qeyri-adi gücə malik uşaqla iki həftə dincəlmədən vuruşur və nəhayət, onu məğlub edərək öldürür. Yeraltı manqaslarla mübarizədə Canqar öz fövqəl qabiliyyətlərindən istifadə edir. Burhanlara səslənərək qara sehirli yağmur yağdırır və uşağın susuzluğunu aradan qaldırmaq üçün böyük dərya yaradır.

Dastan qəhrəmanlarının manqaslarla apardıqları mübarizə, qazandıqları zəfərlər



---

**150 Bəydili Cəlal (2007). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya (monoqrafiya). Bakı, Mütərcim, s. 50**
**151 Canqar (2017). Bakı,"Şur", s. 313**

hər zaman mövcud olan xeyirin şər üzərində qələbəsi kimi təzahür edir. Xeyiri təmsil edən bahadırlar şər qüvvələrin qaynaşdığı çöllərdə əzablarla dolu mübarizə yolu keçir. Dastanda xeyirin şərlə mübarizəsi işıqlı dünyanın, xeyirxahlığın qələbəsi kimi tərənnüm olunur və "Avesta" motivləri ilə səsləşir. "Bu qədim təsəvvürlər, bu fikir "Avesta" kitabında işlənib, xeyirxah, qayğıkeş tanrılar Hürmüzün və onun ən yaxın köməkçisi Zərdüştün simasında, şər qüvvələr, bədxahlıq, nifrin Əhrimənin simasında ümumiləşib, elmi-dini-fəlsəfi cəhətdən bütöv bir fikrə-xeyirlə şərin əbədi mübarizəsi konsepsiyasına çevrilib".[152]

Monqol dastan yaradıcılığında özünəməxsus yer tutan "Canqar" eposu kalmık xalqının vətənpərvərliyinin və mübarizliyinin əks olunduğu ən dəyərli örnəklərdəndir. "Canqar" dastanının təhlil olunması kalmık xalqının tarixi keçmişinin, adət-ənənələrinin, məişət və sosial həyatla bağlı təsəvvürlərinin öyrənilməsi baxımından çox zəngin mənbədir. Şamanizm və buddizm, həmçinin lamanizmə aid ünsürlər kalmık xalqının dini təsəvvürlərinin və inanclarının əksi kimi dastanda müxtəlif formalarda təzahür etmişdir. Bu təzahür epos qəhrəmanların davranışlarının timsalında görülməkdədir.

Qəhrəmanların düşmənlərlə mübarizəsi dastan boyunca bütün boylarda təkbətək və bahadırların birgə mübarizəsi şəklində təsvir edilmişdir. Bu mübarizə dastanın əsas qəhrəmanı Canqar və onun bahadırlarının müxtəlif məqsədlər uğrunda apardığı çarpışmalardır. Doğma məmləkətin bütövlüyü, azad və firavanlıq içərisində yaşamaq Bumba xalqının daimi, əvəzolunmaz arzusudur. Başda Canqar olmaqla bahadırların yeganə amalı Bumba ölkəsinin əbədi və sarsılmaz müstəqilliyin qorunub saxlanmasıdır. Məhz bu amal dastan qəhrəmanlarının düşmənlərə qarşı əbədi mübarizəsinə xidmət edir. Al Honqor, Altan Tsedji bu məqsədlə döyüşən bahadırlara başçılıq edən pəhləvanlardır.

Xalq ədəbiyyatının əsas ünsürlərindən olan miflərin dastanda mövcudluğu qəhrəmanların mifoloji qüvvələrlə mübarizəsində öz əksini tapmışdır. Qəhrəmanların mifik qüvvələrlə mübarizəsi yerin dərin qatlarında və qızmar çöllərdə qarşılaşdıqları sehrli varlıqlardır. Bu baxımdan bahadırlar yalnız xarici düşmənlərlə deyil, həm də işıqlı dünyaya çıxmaq və ya əsirlikdən qurtulmaq üçün yeraltı manqaslarla mübarizə aparır.

Zəngin dil və üslub xüsusiyyətlərinə malik olan, bədii ifadə və təsvir vasitələrinin genişliyi baxımından dolğun "Canqar" eposu dastan qəhrəmanlarının mübarizəsi fonunda araşdırılmış və kalmık xalqının tarixi keçmişini əks etdirən bir ədəbi abidə kimi təhlil edilmişdir.



152 Əlibəyzadə Elməddin.(2005). "Avesta" Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir.Bakı, s. 93